**Elmi Şurasının 5 saylı iclasının**
**QƏRARLARI**

1. **Fəxri professor diplomlarının təqdimi.**

2. **Elmi Şuranın 2023-2024-cü tədris ilinin I yarım ilində qəbul edilmiş qərarlarının icrası barədə.**
   **Məlumat verir:** Elmi Şuranın qərarlarının yerinə yetirilməsinə nəzarət komissiyasının sədri, dos. N.Y.Məmmədov

Qərar. **1. 2023-cü ilin sentyabr ayından 2024-cü ilin yanvar ayına qədər Universitein Elmi şurası tərəfindən qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarət komissiyasının sədri, dos. N.Y.Məmmədovun məlumatı nəzərə alınsın.**

**2. Elm və innovasiya məsələləri üzrə prorektor prof. N.M.Aslanovaya və Beynəlxalq əlaqələr üzrə prorektor prof. N.C.Abdullayevaya tapşırılsın:**
- Partnyor universitetlərlə beynəlxalq konfransların keçirilməsi və nəticələrin indekslənməsinin təmin edilməsi qərarının (oktyabr ayında Türkiyənin Qazi Universiteti ilə birgə "**Memarlıq və İnşaatda enerji və ekoloji texnologiyalar"** mövzusunda beynəlxalq konfransın keçirilməsi və nəticələrin indekslənməsi planlaşdırılır) icrasının başa çatdırılmasına nəzarət davam etdirilsin;
- Universitetin elmi nəşrlərinin xüsusilə elmi əsərlər jurnalının Memarlıq və inşaat mexanikası bölmələrinin Scopusa təqdim edilməsi üçün təxirəsalınmaz tədbirlər görülməsi qərarının icrasına nəzarət davam etdirilsin.

**3. Nəqliyyat fakültəsinin dekanı dos. E.N.Yusifzadənin hesabatı ilə bağlı elmi şuranın qərarı nəzarətdə saxlanılsın.**

**4. 2023-cü ilin sentyabr ayından 2024-cü ilin yanvar ayına qədər Universitetin elmi şurası tərəfindən qəbul olunmuş digər qərarlar əsasən icra edilmiş hesab edilsin və onların qısa müddətdə tamamlanması üçün məlumatda göstərilən qurumlara tapşırılsın.**

**5. Operativ və müntəzəm nəzarət həyata keçirilməsi üçün elmi şuranın qərarlarının yerinə yetirilmə mexanizmi təkmilləşdirilsin.**

3. **Universitetin Strateji inkişaf planına uyğun olaraq 2023-cü ildə yerinə yetirilən işlər barədə.**
   **Məlumat verir:** Strateji planlaşdırma şöbəsinin müdiri Q.Ş.Məmmədzadə

Qərar: **1. Universitetin Strateji inkişaf planına uyğun olaraq 2023-cü ildə yerinə yetirilən işlər barədə Q.Ş.Məmmədzadənin məlumatı nəzərə alınsın.**

**2. 2023-cü ildə Universitetin bütün struktur bölmələrinin strateji inkişaf planının yerinə yetirilməsi istiqamətində fəaliyyəti qeyd olunsun və icrası tamamlanmamış bəndləri üzrə işlər davam etdirilsin.**

**3.** Fakültə dekanlarına, kafedra müdirlərinə və digər struktur bölmələrinin rəhbərlərinə tapşırılsın:

**3.1. Tədrisin keyfiyyətinin artırılması istiqamətində,**
- Təhsilin keyfiyyətini yüksəldilməsi məqsədilə müasir innovativ tədris metodlarının tətbiqi istiqamətində işlər davam etdirilsin,
- Universitetin professor-müəllim heyətinin və tələbələrinin milli və beynəlxalq layihələrə cəlb edilməsi istiqamətində səylər aktivləşdirilsin,
- Magistratura səviyyəsində yeni ikili diplom müqavilələrinin bağlanması qeyd edilsin və bu istiqamətdə işlər davam etdirilsin,
- Professor-müəllim heyətinin bilik və bacarıqlarının, peşəkarlığının artırılması, beynəlxalq təcrübəyə əsaslanan təlim və mübadilə proqramlarında iştirakı nəzarətdə saxlanılsın,

- Yay və qış məktəbləri proqramları genişləndirilsin, əcnəbi və yerli tələbələrin iştirakının artırılması üçün fəaliyyət artırılsın,

**3.2. Elmi-tədqiqat istiqamətində,**

- Professor-müəllim heyətinin və doktorantların beynəlxalq xülasələndirmə və indeksləndirmə bazalarına daxil olan jurnallarda nəşrlərinin sayının artırılması üçün təxirəsalınmaz əməli tədbirlər görülsün;
- Azərbaycanda memarlığın və şəhərsalmanın müasir problemləri, Memarlıq irsinin tədqiqi və bərpası, İnşaatın müasir problemləri, Materialşünaslıq, Ekologiya və başqa istiqamətində tədqiqatlar genişləndirilsin,
- Magistrantların elmi-tədqiqat fəaliyyətinə tələblər artırılsın və onların yerli və beynəlxalq layihələrdə iştirakı və doktorantura təhsilinə cəlb olunmaları istiqamətində fəaliyyət gücləndirilsin.
- Fakültələrin profilinə uyğun olaraq beynəlxalq və respublika statuslu elmi-praktiki konfransların keçirilməsi üçün fəaliyyət artırılsın,
- Gənc kadrların ölkədaxili və xarici elm mərkəzlərində təkmilləşməsi məqsədi ilə tədbirlər görülsün.

**3.3. Təhsilin və elmi fəaliyyətin beynəlmilləşdirilməsi istiqaməti**

- İxtisaslar üzrə buraxılış işlərinin və magistr dissertasiyalarının beynəlxalq müsabiqələrdə təmsil edilməsi genişləndirilsin və bütün fakültələrin iştirakı təmin edilsin,
- Distant tədris texnologiyalarının işlənməsi, inteqrasiya və mobilliyin gücləndirilməsi məqsədi ilə ölkə daxili və xarici universitetlər ilə birgə fəaliyyətə diqqət artırılsın,
- İstanbul Texniki, Yıldız Texniki, Tomsk Dövlət Memarlıq və İnşaat Universiteti, Sankt-Peterburq Dövlət Memarlıq və İnşaat Universiteti, Novosibirsk Dövlət Memarlıq və İnşaat Universiteti, Poltava Texniki Universiteti, Almaata Texniki Universiteti və digər xarici universitetlərlə müəllim-tələbə, magistrant və doktorantların mübadiləsi üzrə birgə proqramların həyata keçirilməsinə diqqət artırılsın,
- Universitetin Azərbaycan və xarici ölkələrin ali məktəbləri arasında tədris-metodiki materialların birgə hazırlanması və nəşri istiqamətində səylər artırılsın,
- Bakalavriat səviyyəsində İnşaat mühəndisliyi, Nəqliyyat tikintisi mühəndisliyi və digər ixtisasların, magistratura səviyyəsində İnşaat mühəndisliyi, Bənd və qurğuların memarlığı və digər ixtisasıların beynəlxalq akkreditasiya almaları istiqamətində fəaliyyət davam etdirilsin,
- Akademik heyət üçün dil hazırlığının keyfiyyətinin artırılması istiqamətində işlər gücləndirilsin,
- Beynəlxalq təhsil sərgilərində universitetin iştirakı davam etdirilsin.

**3.4. Maddi-texniki baza istiqamətində,**

- Partnyor təşkilatların dəstəyi ilə "İnşaat konstruksiyalarının müayinəsi və tədqiqi", "Tikinti istehsalatının kompüter modelləşdirilməsi" və "Hidravliki maşınlar və hidrotexniki qurğular" tədris laboratoriyalarının işinin fəallaşdırılması üçün konkret tədbirlər görülsün,
- Universitetdə xüsusi avadanlıqlarla təchiz olunmuş ixtisaslaşdırılmış auditoriyaların sayı artırılsın.

4. **Universitetin strateji inkişaf planı əsasında 2024-cü il üçün bütün struktur bölmələrinin stateji fəaliyyət planı hazırlansın və təsdiq edilsin.**
5. **Qərar layihəsinin icrasına nəzarət tədris işləri üzrə prorektor prof. A.F.Qasımova, elm və innovasiya məsələləri üzrə prorektor prof. A.M.Aslanovaya, beynəlxalq əlaqələr üzrə prorektor prof. N.C.Abdullayevaya, iqtisadi və təsərrüfat işləri üzrə prorektor dos. İ.R. Məmmədova tapşırılsın.**

**4. Cari məsələlər.**

**4.1. Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri, dos. N.Y.Məmmədova fəxri professor adının verilməsi barədə.**

**Qərar: 1. Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri dos. Məmmədov Nurməmməd Yaşar oğluna Azərbaycan Memarlıq və İnşaat Universitetinin fəxri professoru adı verilsin.**

**2. Fəxri professor adına görə Məmmədov Nurməmməd Yaşar oğlunun vəzifə maaşından asılı olmayaraq əmək haqqına 200 manat əlavə olunsun.**

**5. Müsabiqə işi.**

**5.1. Qərar: Professor Əliyev Fəqan Qənbər oğlu növbəti seçki dövrünə kimi Ekologiya kafedrasına 0,5 ştat professor vəzifəsinə seçilmiş hesab edilsin.**

**5.2. Qərar: Dosent Əhmədova Salatın Alı qızı növbəti seçki dövrünə kimi Azərbaycan dili və pedaqogika kafedrasına müdiri vəzifəsinə seçilmiş hesab edilsin.**